DOI: https://doi.org/10.59849/2957-3882.2025.1.67
UOT: 094

AZSAYLI RUTUL XALQI VAHİD AZƏRBAYCAN AİLƏSİNDƏ

Elvin QARAYEV
AMEA, Şəki Regional Elmi Mərkəzi
Ekoloji Coğrafiya şöbəsi, Azərbaycan
E-mail: elvin_qarayev_1993@mail.ru
ORCİD: 0000-0002-5496-744X

Daxilolma tarixi: 05.02.2025
Düzəliş tarixi: 12.03.2025
Nəşrə təsdiq tarixi:15.05.2025

XÜLASƏ

Məqalədə Azərbaycanın şimal-qərb bölgəsində yaşayan azsaylı xalqların nümayəndələrindən olan rutulların tarixindən və etnoqrafiyasından danışılır, orta əsrlərdə rutul tarixindən müəyyən faktlar qeyd olunur, həmçinin rutul folklorunun spesifik xüsusiyyətlərindən bəhs edilir. Tədqiqatda rutulların əsas yaşayış yerləri, ləhçələri, mərasimlərdəki adət-ənənələri, rutul dili haqqında məlumat qeyd olunmuş, rutul və Azərbaycan etnoqrafiyasının bir sıra ortaq cəhətlərinə nəzər salınmışdır. Azərbaycan ərazisində dostluq və qardaşlıq şəraitində yaşayan azsaylı xalqların nümayəndələrindən olan bu xalqın mədəniyyətinin tərkib hissəsi olan rutul folkloru və etnoqrafiya nümunələri toplanaraq məqalədə tədqiqata cəlb edilmişdir. Araşdırmada bu istiqamətdə yazılan elmi əsərlərin tədqiqi ilə yanaşı, müşahidə, müsahibə və materialların toplanması metodlarından da istifadə edilmişdir.

Məqalədə rutul folklorunun özəlliklərindən, toy adətlərindən bəhs edilir. Qeyd etdiyimiz bu məsələlər müasir tarix və etnoqrafiya üçün maraq doğuran məsələlərdəndir. Bundan əlavə olaraq rutulların bir çox festivallarda və dövlət əhəmiyyətli tədbirlərdə iştirak etməsi və hələ də bu adəti yaşadan Abay rəqs qrupu haqqında məlumat verilmişdir. Burada etnoqrafik cəhətdən maraqlı olan qudiy-qudiy oyunu haqqında da maraqlı məlumatlar əks olunmuşdur. Sonda xalqın yaşlı nümayəndələrinin istifadə etdiyi maraqlı şeirlər və mahnılar təqdim olunmuşdur.

Açar sözlər: *Azsaylı xalqlar, rutullar, Borç, Şin, tarix, etnik*

МАЛОЧИСЛЕННЫЙ РУТУЛЬСКИЙ НАРОД В ЕДИНОЙ АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬЕ

Эльвин ГАРАЕВ
НАНА, Шекинский региональный научный центр. Азербайджан.
E-mail: elvin_qaraev_1993@mail.ru,
ORCID: 0000-0002-5496-744X

Дата поступления: 05.02.2025
Дата исправления:12.03.2025
Дата утверждения к публикации: 15.05.2025

АННОТАЦИЯ

В статье говорится об истории и этнографии рутул, представителей небольшого числа народов, проживающих в северо-западном регионе Азербайджана. В средние века были зафиксированы некоторые факты истории Рутула. Отмечаются также особенности рутульского фольклора. В исследовательской статье были упомянуты сведения об основных местах проживания рутульского народа, его обрядовых обычаях, рутульском языке. Рассмотрен ряд общих черт рутульской и азербайджанской этнографии. В статье представлены сведения об исторической предпосылке рутулов, представителей небольшого

числа народов, проживающих в дружественных и братских условиях на территории Азербайджана, а также образцы рутульского фольклора и этнографии, входящие в состав рутульской культуры собраны и вовлечены в исследование. Наряду с написанными в этом направлении научными работами в исследовательской работе использовались методы наблюдения, интервью и сбора материала. В статье говорится об особенностях рутульского фольклора. Также приведены сведения о важнейших свадебных обычаях рутулов и обычаях хана, визиря и палача, проводимых после свадьбы. Кроме того, упоминался обычай водить невесту на воду после свадьбы. Представленные нами вопросы входят в число актуальных тем современной истории и этнографии. Была предоставлена информация о танцевальном коллективе «Абай», представители которого — рутулы — активно участвовали в различных фестивалях и мероприятиях государственного уровня, продолжая эту традицию и по сей день. Также была представлена интересная информация об этнографически интересной игре «гуди-гуди». В конце были упомянуты интересные стихи и песни, которыми пользовались пожилые представители Рутула.

***Ключевые слова**: Меньшинства, рутулы, Борч, Шин, история, этнический*

THE SMALL RUTUL PEOPLE AS A PART OF SINGLE AZERBAIJANI FAMILY

Elvin GARAYEV
ANAS, Sheki Regional Scientific Center. Azerbaijan.
E-mail: elvin_qarayev_1993@mail.ru
ORCID: 0000-0002-5496-744X

Date of submission: 05.02.2025
Date of revision: 12.03.2025
Date of acceptance for publication:15.05.2025

ABSTRACT

The article discusses the history and ethnography of the Rutuls, one of the ethnic minorities living in the northwestern region of Azerbaijan. It emphasizes certain historical facts about the Rutuls during the Middle Ages and examines specific features of Rutul folklore. The study provides information on the primary settlements of the Rutuls, their dialects, customs observed in rituals, and the Rutul language. Additionally, it draws attention to several common aspects shared between Rutul and Azerbaijani ethnography.

As representatives of one of the ethnic minorities living in an atmosphere of friendship and brotherhood within the territory of Azerbaijan, the Rutuls' folklore and ethnographic elements — integral parts of their culture — have been collected and analyzed in the article. The research is based not only on the study of academic literature in this field but also incorporates methods such as observation, interviews, and material collection.

The article explores the distinctive features of Rutul folklore, including wedding traditions. These topics are of interest to contemporary history and ethnography. Furthermore, it provides information about the participation of the Rutuls in various festivals and state-level events, with particular mention of the *Abay* dance ensemble, which continues to preserve these traditions today. Ethnographically significant elements such as the traditional *Qudiy-Qudiy* game are also described in detail. The article concludes with samples of interesting poems and songs used by elder members of the Rutul community.

***Key words:** Minorities, rutuls, Borch, Shin, history, ethnic*

Giriş

Coğrafi baxımdan Avropa və Asiya qitələrinin sərhədində yerləşən müasir Azərbaycan müxtəlif sivilizasiyaların: əhəməni-sasani, roma-bizans, skif-xəzər, türk-oğuz mədəniyyətlərinin kəsişməsində bərqərar olmuşdur. Əlverişli coğrafi şəraitdə yerləşməsi və zəngin təbiəti hələ qədim dövrlərdən bu ərazinin geniş yaşayış məskəninə çevrilməsinə səbəb olmuşdur.

Həm qədim, həm də müasir dövrdə Azərbaycan öz yüksək tolerantlığı ilə seçilən bir xalq olaraq tarixin yaddaşına həkk olunmuşdur. Bura, Zərdüştlüyün vətəni, Qafqazda xristianlığın ilk beşiyi, İslam dininin geniş yayıldığı məkan, müxtəlif etnosların sülh içində yaşadığı ərazi, rəngarəng mədəniyyətlərin, folklorların bir-birindən bəhrələnərək çiçəkləndiyi diyardır. Tarixi mənbələr Azərbaycanın etnik tərkibinin daim genişləndiyini göstərir.

Bu gün Azərbaycan öz etnik rəngarəngliyi ilə seçilir. Onun ərazisində Azərbaycan türkləri ilə yanaşı, rutullar, ləzgilər, avarlar, tatlar, talışlar, dağ yəhudiləri, kürdlər, molokanlar, ingiloylar, saxurlar, xınalıqlılar, buduqlar, qrızlar, udinlər və s. etnik qruplar birlik və bərabərlik içərisində yaşayırlar. Hər bir etnik qrup ümumazərbaycan mədəniyyətinin tərkibinə daxildir və onların hər biri özünəməxsus mədəniyyətin elementlərini qoruyub saxlamışdır. Belə ki, hər etnik qrupun özünəməxsus adət-ənənəsi, sənətkarlığı, mətbəxi və müxtəlif mərasimləri ümumazərbaycan mədəniyyətinin daha da zənginləşməsinə xidmət edən əsas amillərdən olmuşdur.

Dağıstan, o cümlədən onun ərazi vahidlərindən olan Rutul qədim dövrlərdən səyahətçilər, tarixçilər, alimlər üçün maraqlı tədqiqat məkanı olmuş və olmaqda davam etməkdədir. Bir qayda olaraq, maraq mərkəzində qeyd olunan bölgənin tarixi, etimologiyası, etnoqrafiyası, sosial-iqtisadi şəraiti, təsərrüfatı ilə yanaşı, ərazidə məskunlaşmış ayrı-ayrı xalqların dillərinin araşdırılması da durur.

Rutulların tarixi

Tarixən və bu gün Azərbaycan ərazisində yaşayan etnik xalqların yaşam tərzi və mədəniyyəti tədqiqatçıları maraqlandırmışdır. Bu xalqlardan biri də rutullardır. Rutulların tarixi Qafqaz Albaniyası ilə bağlıdır. Dağıstanın cənub hissəsində yaşamış iri siyasi birliklərdən biri olan rutullar Lezganın tərkibinə daxil olmuşlar. Rutulun Xnov kəndi güc cəhətdən fərqlənmişdir. Xnov kəndi güclənərək, özünün süvari dəstəsini yaratmışdır. Həmin dövrdə Xnovdan tapılmış kitabələr də bu faktı təsdiq edir. Qafqazşünas alim L.İ.Lavrovun məşhur əsərlərindən biri olan "Rutullar keçmişdə və indi" kitabında rutullar haqqında məlumat verilir və qeyd olunur: XV əsrdə Rutul böyük Dağıstanın siyası həyatında mühüm rol oynayırdı. Rutula müxtəlif illərdə xəzərlər, monqollar, türklər, farslar hücum etmişdir. Bu xalq qəhrəmancasına vuruşmuş və daim onlara müqavimət göstərmişdir. Hətta 1741-ci ildə Nadir şah Rutula hücum etmiş və oranı mühasirəyə almış, lakin ala bilməmişdir. Bu da rutulların necə döyüşkən xalq olduğu haqqında aydın təsəvvür yaradır.

"Rutul" adına "Əbu Müslimin tarixi" kitabında təsadüf olunur. Orada deyildiyinə görə, Rutulda, Xnovda və Şinazda Abu Müslimin nəvələrindən bəzisi məskən salır. Həmin mənbədən oxuyuruq ki, xəzərlərlə müharibə zamanı Axtı hökmdarı dervişal "Rutulun, Cenikin və Rufukun igid döyüşçülərini köməyə çağırır" (Lavrov, 1966, səh 141-142).

L.İ.Lavrovun qeyd etdiyinə görə, orta əsrlərdə (XII) Rutulda sufi məbədi mövcud olmuşdur. Bu da həmin dövrdə Rutulda və rutulların arasında İslamın möhkəmləndiyinə dəlalət edir. O, Samurun yuxarı sahilini "Qafqazda kufi yazılarının geniş yayıldığı ən zəngin ərazi adlandırır.

Rutulların məskunlaşdıqları yerlər haqqında müəyyən məlumatlar vardır ki, belə məlumatlara orta əsr müəlliflərinin əsərlərində təsadüf olunur. Rutulların yaşadığı əsas yaşayış məskənlərindən biri olan Şinaz kəndi haqqında ərəb kosmoqrafı Zəkəriyyə əl-Qəzvini belə deyir: rutul yaşayış məskənlərindən biri olan Şinaz ləzgilərin kiçik şəhəridir, o dağların arasında yerləşir. Oraya gedən yol çətin relyefdən keçir. Onlar "сул" adlı taxıl sortu və dağ almaları yetişdirirlər. Sakinləri xeyirxah və qonaqlara qarşı diqqətcildir. Onlar silah ləvazimatı və zirehli geyim istehsalı ilə məşğuldurlar" (Lavrov, 1978, səh 36).

Rutullar İslam dininə etiqad edirlər. Mənbələrdə göstərildiyi kimi, Dağıstanda yaşayan xalqlar arasında İslam dinini ən tez qəbul edənlər elə məhz rutullar olmuşlar.

Ruslar bir çox ərazilərə olduğu kimi rutulların yaşadığı əraziyə də hücum etmişdirlər.

XIX əsrin əvəllərində Rusiya imperiyası Qafqaza hücumlar etməyə başlayır. Beləliklə 1812-ci ildə Rutul Rusiyaya birləşdirilir. Ancaq buna baxmayaraq rutullar Ağa bəy əl-Rutulinin rəhbərliyi altında 1838-ci ildə ruslara qarşı üsyan edirlər. 1839-cu ildə Rutul mahalı İlusu sultanlığına birləşdirilir. 5 il sonra, yəni 1844-cü ildə bu sultanlıq ləğv olunur. Bundan sonra Rutul İlusu sultanlığı ilə birlikdə Car-Balakən hərbi dairəsinin tabeliyinə keçir. Dairə üç mahala bölünür: Rutul, İlisu və İngiloy. Onların hər birinə dairə rəisi tərəfindən naib tələb olunur.

Şeyx Şamilin rəhbərliyi altında Qafqaz müharibəsində fəal iştirak edən dağıstanlıların, o cümlədən rutulların ailələri hərəkatın süqutundan sonra Dağıstandan sürgün edilir. Onlar bir sıra Şərq ölkələrinə mühacirət edirlər.

1917-ci ildə yaradılmış Dağlı Respublikasında ərəb dili dövlət dili statusu qazanır, məktəblərdə bu dildə dərslər keçirilir. 1921-ci ildə Dağıstan MSSR yaradılanda bir sıra xalqlar kimi, rutullar da Sovet hökuməti əleyhinə çıxırlar. 1930-cu ilin mayında Xnovda antisovet üsyanı qalxır və o ətraf kəndləri də əhatə edir. Lakin üsyan amansızlıqla yatırılır.

1925-ci ildə Dağıstanda islam əleyhinə kompaniya başlananda bu, məktəblərin bağlanması, ərəb dilinin qadağan olunması, yerli imamların məhv edilməsi ilə müşayiət olunur. Həmin siyasət 30-cu illərdə repressiyalar formasında davam edir. Rutul ziyalıları onun acı nəticələrini indiyə kimi öz talelərində hiss edirlər (Ramazanov, Şıxsəidov, 1964. Səh 95-100).

"Rutul" etnonimi Dağıstanın eyniadlı rayonunun adı ilə bağlıdır. Sözün mənşəyi məlum deyildir. Bu söz, ümumiyyətlə, gec yaranıb. Ona qədər rutullar özlərinə "muxadlar", "şinazlar", "müxreklər", "borclar", "xnovlar" kimi adlar vermişlər. Maraqlıdır ki, rutullar öz kəndlərini "Mıxiaid", özlərini "Mıxiabir" və ya "Mixiad" adlandırırlar.

1989-cu ilin siyahıyalınmasına əsasən SSRİ-də 25397 nəfər etnik rutul yaşayırdı. Bu xalqın nümayəndələri Rutul rayonunda, Samur çayının sahilində yerləşən Luçek, Şinaz, İxrek, Müxrek, Amsar, Kina Vruş, Cilixur, Qala, Pilek, fartma, Aran kəndlərində, Axıtçay sahilindəki Rutul rayonunun Borç və Axtı rayonunun Xnov kəndlərində yaşayırdılar. Onlar həmçinin, Şimali Dağıstanda Kizlyar rayonunun Rıbalka, Babayurd rayonun Novıy Borç kəndlərində məskunlaşıblar.

Azərbayacanda rutullar əsasən Şəki rayonunun Şin, Şorsu, Daşüz, Göybulaq, Küdürlü, Aydınbulaq, İnçə, Köbər Zəyzid, Baltalı, Baş Göynük, Aşağı Göynük kəndlərində yaşayırlar. Rutul dilinin muxad, şinaz, müxrək, ixrək, borç və xnov dialektləri mövcuddur (4).

Rutulların məişət həyatı

XX əsrin 40-cı illərinə qədər rutullar maldarlıqla məşğul olaraq köçəri həyat sürüblər. Əhalinin köçəri həyat sürməsinin digər səbəbi Dağıstanın coğrafi mövqeyinin əlverişsiz olmasıdır. Rutulların yaşadığı Borç və Xnov kəndlərinin əlverişsiz coğrafi mövqeyi digər rayonlarla əlaqəni çətinləşdirirdi. Ona görə də Rutullar tarixən Azərbaycanla əlaqə saxlamağa məcbur qalırdılar. Məhz bu səbəbdən əhali yayda Dağıstanın (Rutul rayonunun) yaylaq ərazilərinə, qışda isə Azərbaycanın Saatlı, Salyan, Sabirabad, Kürdəmir, Şəki və Şəkinin Şorsu, Daşüz, Sarıca, Acınohur ərazilərinə köç edirdilər. Köçmə maldarlıqla məşğul olan təsərrüfatçılar iki qrupa ayrılırdı: Birinci qrup təsərrüfatçılar ailəvi şəkildə köç edən təsərrüfatçılar idi. Onlar bütün ailə üzvlərini özləri ilə birlikdə aparırdılar. İkinci qrup təsərrüfatçılar isə ailəsini evdə saxlayır, ailəyə lazım olan bütün ərzaq mallarını Şəki şəhərindən alıb göndərir, özləri isə Azərbaycanda maldarlıqla məşğul olurdular. Hər iki qrup təsərrüfatçılar ilin doqquz ayında Azərbaycanda, qalan üç ayında isə Dağıstanda olurdular.

Rutulların Azərbaycanla Dağıstan arasında yaratdığı əlaqələrdən biri də qohumluq əlaqələri idi. Azərbaycanla Dağıstan arasında tarixən qohumluq əlaqələri mövcud olub və bu əlaqələr indi də davam edir (Olson, James, 1994. Səh 522-528).

Rutul rayonunun, xüsusən də Borç və Xnov kəndlərinin coğrafi mövqeyinin əlverişsiz olması, onlar üçün ərzaq çatışmazlığı problemi yaradırdı. Ona görə də onlar özlərinə lazım olan ərzaq

mallarını Azərbaycandan (Şəki) aparırdılar. Atlar vasitəsilə 5-6 aylıq ərzaq ehtiyatını aparır və özlərinin qida ehtiyatını təmin edirdilər. Rutullar bu ərzaq mallarını həm pulla, həm də digər vasitələrlə - yun, pendir, ət, süd məhsulları ilə dəyişməklə əldə edirdilər. Onlar əsas gediş-gəliş yolu kimi Şin dərəsindən, Salavat aşırımından istifadə edirdilər.

Rutulların köçəri həyat tərzindən oturaq həyat tərzinə keçid dövrü yaşlı nəslin yaddaşında da dərin izlər buraxıb. Hər bir xalqın adət-ənənəsinin, folklorunun, həyat tərzinin, məişətinin canlı daşıyıcısı həmin xalqın yaşlı nəsli sayılır. Adət-ənənələr məhz onların yaddaşlarında və əməllərində yaşayır və indiki nəsillərə çatdırılır. Bu adət-ənənələr, indi də yaddaşlarda qalmaqdadır (Lavrov, 1955. səh 190-195).

Rutullarda evlilik mərasimləri

Rutullarda evlilik mərasimlərinin birinci mərhələsi qız bəyənmədir. Yaz bayramı ərəfəsində rutullarda hər nəsil və ya hər məhəllə bir yerə yığışar, baharın gəlişi münasibəti ilə müxtəlif mərasim ayinləri icra edərdilər. Bu zaman gənclər qız bəyənmək, ürəklərini açа bilmək üçün fürsət tapar, yelləncək qurub əylənərdilər. Rutullar bunu "***şadvaldı***" adlandırardılar.

Ümumiyyətlə, yelləncəklə yellənmək ənənəsi təkcə rutullarda deyil, Orta Asiya xalqları üçün də xarakterik idi. Keçmişdə rutullarda toya dəvət etmək də başqa cür olurdu. Rutullar toya dəvət edərkən ***"qaşığınızla gəlin" (turuxhan dık`a)*** deyərdilər. Bu həm də yeməyə dəvət forması idi. Rutullar toyu ***"Davat"*** adlandırırlar (Lavrov, 1982. Səh 146).

Rutulların yaşadığı Şin kəndində oğlan adamları qız evinə yaxınlaşdıqda gəlinin qohumlarından biri uzun bir ağacın başına soğan keçirirdi. Gəlini aparmağa gələnlərdən biri onu nişan alıb vurmalı idi. Maraqlı adətlərdən biri də bəyin öz toyunda tüfənglə güllə atması idi. Bəy öz evində yox (toy günü) ya qonşunun, ya da yaxın qohumunun evində oturmalı idi.

Oğlan evindən gəlini aparmağa gələndə qız tərəfdən qapını bağlayıb "***barxı***" deyilən təyinat olur. "***Cilovdar***"ın vəzifəsi qız evindən qırmızı lentlə bəzədilmiş gümüş kasanı oğlan evinə satmaqdır. Bunu oğlan evindən bəyin sağ və ya sol dişi alır. Gəlin gətirildikdən üç gün sonra "***bulaxa ək`iruraır"*** (suya çıxarılma) mərasimi keçirilir. Bu zaman gəlini suya çıxaranlar yolda olanlara şirinlik kimi halva və digər şirniyyatlar paylayırlar. Rutullarda qohumlarla evlilik yolverilməzdir. Yəni onlarda dayıoğlu, əmioğlu, dayıqızı, əmiqızı, xalaoğlu, xalaqızı, bibioğlu, bibiqızı arasında evlilik olmur. Bundan belə nəticəyə gəlmək olar ki, rutullar qan qohumluğuna əsaslanan nikaha deyil, ekzoqam nikahlara, yəni kənar nəsildən evlənməyə üstünlük verirlər. XIX-XX əsrlərdə beşikkərtmə nikah qaydası avarlarda, ləzgilərdə olduğu kimi rutullar arasında da mövcud idi. Yeni doğulan körpələrin göbəyinin kəsilməsi zamanı molla dua oxuyur və sonra körpələrin bir-birinə aid olduğunu, aid edildiyini elan edir (İxilov, 1960. Səh 28).

Rutullar bir çox adət və ənənələrini saxladıqları kimi toy adətlərində də bu özünəməxsusluğu qoruyub saxlayıblar. Xan, Vəzir və Cəlladın iştirakı ilə olan səhnə müasir rutul toylarında da dəbdədir. Bu səhnə oğlan toyunun sabahı günü təşkil olunur. Bu adət toya rəngarənglik gətirməklə yanaşı, həm də tərbiyəvi əhəmiyyət daşıyır. Uzun illər boyu el-obanın toylarında iştirak edən ağsaqqallar da keçmiş adətləri yada salırlar. İndiki və keçmiş toyların fərqindən danışırlar.

Rutul toylarının maraqlı cəhətlərindən biri də ondan ibarətdir ki, toylar üç gün çəkirdi. Üç gün, üç gecə toy olurdu. Hal-hazırda rutulların yaşadığı Dağıstanın Babayurd rayonunun Novıy Borç kəndində, toy mərasimində gəlini birbaşa oğlan evinə aparmırlar. Gəlini birinci gün oğlanın qohumlarından birinin evinə aparır, bir gün keçəndən sonra yenidən oğlan evinə aparırlar (Alekseyev, Kazenin, Süleymanov, 2006. Səh 88).

Rutul toylarının özünəməxsus adətlərindən biri də o idi ki, keçmiş zamanlarda işıq olmadığı üçün axşamlar 7-8 ocaq qalanıb həmin ocaqların üstünə sac qoyulardı. Sonra həmin sacın içinə nöyüd töküb yandırırdılar ki, ətraf ərazilərə işıq saçsın. Həmin saclar dairəvi formada düzülürdü və toyda iştirak edənlər həmin dairəvi yerdə oynayardılar.

Rutul dili və folkloru

Rutulların özünəməxsusluqlarından biri də onların özünəxas dilinin olmasıdır. Bu xalqın dili Qafqazdilli xalqlar qrupuna aiddir. Rutul dilinin əsasən leksik fərqlərə malik dörd dialekti var. Leksikasında ərəb, fars, xüsusilə azərbaycan və rus mənşəli sözlər çoxdur. Öz dillərində yazıb yaradan şair təbiətli rutullar köç həyatına, məskunlaşmağa və sonradan quruculuğa aid bir sıra ədəbiyyat nümunələri yaratmışlar. Baxmayaraq ki, rutul əlifbası yoxdur, bu dil şairlərin, yazıçıların əsərlərində yaşadılıb və nəsillərə ötürülüb. Rutullar öz şeirlərində və mahnılarında həyat tərzlərini - kimisi yaşam tarixini, kimisi də öz dədə-baba yurdlarını yada salır.

Demək olar ki, mənbəyi Dağıstan rutullarından qaynaqlanan bu xalqın folkloru Şorsu kəndində də öz axarı ilə davam edir. Rutullar öz folklor nümunələrini hərtərəfli yaşadır, inkişaf etdirirlər. Yaradılan şeir nümunələri, rəqs qrupu ilə yanaşı, rutul folkloru onun ayrılmaz hissəsi olan "***ABAY***" rəqs ansamblının ifalarında da yaşayır. Bu ansambl təkcə Şorsu kəndində deyil, Şəkidə keçirilən bütün şənliklərin də bəzəyi sayılır. Həmçinin Şəkidə və Şəkinin rutulların yaşadığı digər kəndlərində toyların əsas iştirakçılarıdır (Hacıyev, 1996. Səh 245).

Rutulların bu yerlərə Dağıstandan gəlməsinə baxmayaraq, onların bir çox xüsusiyyətləri Dağıstan xalqlarından, o cümlədən avarlardan, ləzgilərdən, saxurlardan seçilir. Bu fərqlənmə onların mədəniyyət, incəsənət nümunələrində də özünü göstərir. Rutulların çaldığı havalar, oynadığı milli rəqslər həmin xalqların tipinə uyğun gəlsə də, eyniyyət təşkil etmir.

Dağıstan xalqları ilə rutullar arasında uyğunluqla yanaşı, fərqlənən çalarlar sırasında onların dilini də göstərmək olar. Rutul dili Dağıstan dillərinin ləzgi qrupuna daxil olduğu kimi, bu xalqların musiqi folklorunda da oxşar cəhətlərin olması olduqca təbiidir. Rutul musiqi folkloru janr və forma rəngarəngliyi ilə seçilir. Bu janrlar içərisində çox sevilən rəqs sənəti nümunələri adətən, zurnaçılar dəstəsi tərəfindən müşayiət edilir. (2 zurna, kos nağara, bala nağara). Xalq mahnılarının müşaiyətində akkardeon və nağaradan, eyni zamanda, balabandan da istifadə olunur. Xalq vokal musiqisinin solo, duet və xor şəklində oxumaları geniş yayılmışdır (Sokrat, 2007. Səh 18-26).

Rutulların ən çox istifadə etdiyi musiqi alətlərindən biri də meydir. Meydən toy çalğı aləti kimi deyil, adətən folklor nümunəsi kimi istifadə edilir. Bu aləti qamışdan hazırlayırlar. Müəyyən səslərin çıxması üçün onun ucuna buynuz taxılır. Ona görə ki, buynuz alətdən çıxan səsi gücləndirir. Arxa tərəfinə (ağız tərəfi) isə süpsi taxılır (İxilov, 1960. Səh 26).

Rutullar rəqs sənətinə böyük rəğbət bəsləyirlər. Rəqs edəndə iki-iki ("Çuırni-çuırni" və "Arzurık`a", "Avarı" kimi mahnılarla) birləşərək oynayılar. Rrutul rəqslərində qonşu xalqların folkloru ilə yanaşı müəyyən yeniliklər də vardır. Müştərək cəhətləri və melodik tipləri xalq mahnı yaradıcılığında da görmək olar. Rutullar "Lilay", "Maralxanım", "Ceyranım" və s kimi bayatı kimi mahnılardan istifadə edirlər (https://multikultural.az/az/medeni-muxteliflik/595/rutullar-tarix-medeniyyet-din/).

Musiqi nümunələrindən öz doğma dillərində olanları vardır ki, bu mahnılara çox üstünlük verirlər. Həmin mahnılara "Can abay", "Paruk`ay", "Dəydiriş" və digərlərini də əlavə etmək olar. Məsələn, Bir sıra janrların adını bildirən terminlər də məlumdur. "Muk"–rəqs, "muk` havın"–rəqs etmək, "ç`aılbı"-mahnı deməkdir. "Avazaxhan" isə sərbəst (kimi) ritmli improvizə üslubu ilə muğamları xatırladır və Azərbaycan muğam şöbələrindən istifadəni şərtləndirir (http://samurpress.net/story.php?sid=2262). Qeyd etdiyimiz kimi, rutulların folklorunun əsas hissəsini rutul mahnıları təşkil edir. Belə mahnılardan bir neçəsini misal göstərmək olar:

Bıçadi riş rutul mahnısı

Dağıstanad bıç`kaldı, ay bıçadl riş
Yeyləxanad xhədkaldı, ay bıçadı riş
Dağıstanad bıç`kaldı, ay bıçadı riş
Yeyləxanad xhədkaldı,ay bıçadı riş

Suvumudu ceyran kaldı
Dərdimid dərmankaldı
Masarıd almazkaldı
Ay xaşdi rutulaşdı riş.
Suvumudu ceyran kaldı
Dərdimid dərman kaldı
Masarıd almazkaldı
Ay xaşdi bıçamıdı riş.
Ğudu cubra irxhur yi ay bıçadı riş
Ğudu dərdə irxhur yi can bıçadı riş
Ğudu cubra irxhur yi ay bıçadı riş
Ğudu dərdə irxhur yi can bıçadı riş
Suvumudu ceyrankaldı
Dərdimid dərmankaldı
Masarıd almazkaldı
Ay xaşdi rutulaşdı riş.
Suvumudu ceyrankaldı
Dərdimid dərmankaldı
Masarıd almazkaldı
Ay xaşdi bıçamıdı riş.

Şahzada rutul mahnısı

Yik`ə abı huxhus yıqar yəs ğada
Ğu ğarqudə yi lal ruk`ur Şahzada
Rıxdi ziya luzur alkar uyuxkal
Çulax ruk`ur, tupal ruk`ur Şahzada
Çulax ruk`ur, tupal ruk`ur Şahzada
Sa ğu rişixh, say i yişixh can qada
Did-nin yik`ir ğu yəs rişixh Şahzada
Hər bulaxa ruırk`uıdə ğu kaz xıla
Ğarazar yi favkıdıkal faz xıla
Yəsgi ağus yıqar laşur saz xhıls
Suk`ur yəşəs, keyghas yıqar Şahzada
Balabankal eyghas yıqar Şahzada
Sa ğu rişixh, say i yişixh can qada
Did-nin yik`ir ğu yəs rişixh Şahzada
Yuşa k`uşk`ud nak`bı ğaqar larxanə
Vıxhdı xalı seyvana yi salxan
Hirkanə yi şinara yişir larxanə
Ğudu şuklə siy vuruk`ur Şahzada
X'ələ ubul, xiy vuruk`ur Şahzada
Sa ğu rişixh, say i yişixh can qada
Did-nin yik`ir ğu yəs rişixh Şahzada

*(*https://az.wikipedia.org/wiki/Rutullar*)*.

Şorsu mahnısı

Təmərzi vi Şursiy mık'dı x'idixda
Yaq'uba ruxur bıçadi valxur hidixda
Bıça vinay ç'urçumdu ayran Yaq'ub
Şursiy havada cənnətdis tay vinay

Aldiy suvbu, qabağa çirid bağ inat
Bəxil vinay yaxçu balad cıqabı
Vaxt vinay Şursiy avad bay vinay
İti ğubağ lavğu'tkal ladğunay
Bıçıq'ı midə şir kipt'itkal adğunay
Bıça meyvə livirq'amə ay Yaq'ub
İrdi anar, dirak'dı x'ır, əç Yaq'ub
Ğas ğavqurvi çovranə balkan Yaq'ub
Ğas ğavqurvi ak'k'adi muk'x Yaq'ub
Bakarıd zad laşus duruk'unay ay Yaq'ub
Bəla vinay, rı'ka çarağan vinay
Ğu his yırk'ıdə Şursiya ay Yaq'ub.

Rutul atalar sözləri və deyimləri Rutul folklorunun əsasını təşkil edir. Rutul atalar sözlərindən aşağıdakıları misal göstərə bilərik:

1. yeylaxa lixhımıd yə ç`ar yə xasiyət kiykasi.
(Eyni yaylaqda otlayanların ya tükləri ,ya da xasiyyətləri oxşar olar)
2. Ublus suda ki kıvınə maa ç`alagxdiil kavaqhas diş.
(Canavarı nə qədər yedizdirsən də,yenə də meşəyə girməz)
3. Mık q`ıldıqır t`ulq`at`i.
(Buz nazik yerindən çatlar)
4. Tanbaldı yıimaıləs palan ki sa xəl ki.
(Tənbəl eşşəyə palan da ağır yükdür)
5. Aldara yats lipxhudə aa yıimal vəşədvi.
(Yuxarıda öküzün ayağı sürüşəndə aşağıda eşşək ağlayar)
6. Xhəd qhaıaıtxıir, kubkuxdax xıl qhama`.
(Su axıb gedəndən sonra köpüyünə əl atma)
7. Ğuas çıqay mannas ki ma`.
(Özün üçün istəmədiklərini özgələrinə də arzulama)
8. Suvq`udu aslanala luvzudu çaq`al diri vii.
(Yatmış aslandansa, ayıq çaqqal qorxuludur)
9. Xaina q`ış linsəddiş.
(Xain adam piylənməz)(varlanmaz)
10. Ğu kapıraxhan yıxıidi ğuc xhıvaxhan yıix.
(Səni xəncərlə vuranı sən çörəklə vur)
11. Yik`is ğaçagud ulus ğavaqad diş.
(Qəlbin görmədiyini göz görə bilməz)
12. Kaçılmıxda vıxhıdı ubramıkia ki vişir.
(Buynuzdan ötrü getdi,qulağınıda itirdi)
13. Livxhid; viq`iddiş.
(Otlayan ölməz)(xəstəlikdən sonra)
14. Ubluk` təxh kipt`ə ha`vırvi.
(Canavara qoyun tapşırılıb)
15. Haldı k`at`ırda kış ha`vıdı idə.
*(Kimin toyuğuna kış deyib) (*https://www.kaspi.az/az/rutullarin-folkloru*).*

Digər rutul mahnılarından aşağıdakıları misal göstərmək olar:

1. Ay xaşdi riş rutul mahnısı

Ç'arbı yii sərkal l'ıxıd
Qaşbı yii k'alamk'alıd
Xaşvalıxda heç ç'al adiş
Sa va marux' ay xaşdi riş
K'əyəğatxur aman mabdiş
Yəşəs yıqar nağ mabdiş
Yix'di dərdəs ğu dərman riş
Sa vaa marux' ay xaşdi riş
U'mur yix'di ğudu xıla
Davam yiç'əs suk'us xala
Ğudu yik'ə insaf adiş
Sa vaa marux' ay xaşdi riş
K'əyəğatxur aman mabdiş
Yəşəs yıqar nağ mabdiş
Yix'di dərdəs ğu dərman riş.
Sa vaa marux' ay xaşdi riş

2.Leyla rutul mahnısı

L'ı'x'ı'd qaşbı, l'ı'x'ı'd ulabı,
Qardana ad qizilləd xadbı,
H'arış yaxda mabdiş sabır,
Leyla rux'ur, leyla leyla leyla can.
Yik'irəki ğu ru'rk'ur',
Leyla, leyla can leyla,
Bıç'ıraki ğu ru'rk'ur',
Leyla, leyla can leyla.
Can-can-can leyla can,
Yix'di yik'id dərmani leyla leylacan,
Suxçulk'ay bıç' yii ğaxda,
K'asa çuğuy yik' yaxda,
Candıd dərman yaxda,
Leyla ruxur leyla-leyla leylacan

3. Qunşidi riş rutul mahnısı

Təknə bağa, gül lirk'aş qunşidi riş
Ğax'an yəzid, gül sulkaş, qunşidi riş
Təknə bağa gül lirk'aş, qunşidi riş
Ğax'an yəzid, gül sulkaş, qunşidi riş
Qunşidi riş, ğu xaşdi riş,
Qunşidi riş, bat'radı riş,

***4*.Ğu yix′di yik′ə arkır rutul mahnısı**

Dünüdü xaşdii bala
Misədi xaşdi yəs ğarquş
Dünüdü ceyran bala
Ğu yix'di yik'ə arkır
Arğ'udə mah'lidə ğu
Vaz-viriğ daqul vişir
Ğu ğarqudə bəs yişir
Ğu yixdi yikə arkır
X'ırıdıqır yəs ğu ğarqur
Ğarquda rıqar rişir
Xıl hır yic ğaxdiy
Ğuc ma vaa xur yədə

5. Abır adı cehil rutul mahnısı

Abır adı sa cehil
Davatak luzuri
Tamaaşa vaar vii
Hambazaşa ruxur
Çindi riş xaşari
Çindi riş xaşar
Leyix abır adı rii
Leyix abır adı rii.
Bıç'k'aldı riş lurzuri
Hambazaşdi yanda rii
Ulama yak' anai
Ulama yak'anai
Xaşid ulama nur anai
Diddi, nindi sa riş rii
Hasarki yəs vic rıqayri
K'ad bıç sa rangadii

K'ad bıç sa rangadii.
Sa rangadii
Leyix abır adı rii.

6. Deydi riş rutul mahnısı.

Deydi riş, can deydi riş,
Ərirx'ada bat'radı riş,
Deydi riş, can deydi riş,
Muk' vaadə bat'radı ri.
Sanuşdə yic ğada,
Əlçiyər r'ı'k'a ədir,
Hidixda havumuda ğuc,
Tülük diş midiqır x'ur.
Deydi riş, can deydi riş,
Ərirx'ada bat'radı riş,
Deydi riş, can deydi riş,
Muk' vaadə bat'radı riş.

Hər kardıxda da vaxt vii
Sus harı'r rıqayri
Sus harı'r rıqayri

7. Baxtavar rutul mahnısı

T'ılamı ğaadı baxtavar
Ay utanvalıd sədəfkalıd sazkaldı
Hirirkada maydana ğaadı q'azkaldı
X'h'aldı yikə s'hukra adı vazk'aldı
L'ıx'ıd qaşbı ulamı ğaadı baxtavar
Ay yakla məcnun yişir, ğaxda ğurğarii
Dərdə irx'ur yığ-yığala surk'arii
Yiki ğaxda, ğuki yaxda ruğurğari
Ceyran vişir düzmü ğaadı baxtavar
Ay k'ab' x'ib çubnə sur çarbı sitx'urii
Şiv utannə ğudu buyas ğitxurii
Hirikada ğilamıdi k'anık kitx'uuri
K'ad yuk'na sur çarmıd ğaadı baxtavar

8. Yəs ğu rıqad balaqarvi rutul mahnısı

Yəs yıqanay ğada hux'us,
Hər ğarqudə ç'al hux'us,
Yix'di ninə ğudu nində,
Yix'di ninə ğudu nində,
Ç'al kavıxad balaqarvi
Ç'al kavıxad balaqarvi,
Yəs ğu rıqad balaqarvi
Ğu yəs rıqad balaqarvi
Yəs ğu rıqad balaqarvi,
Ğas yi yıqad şudaqavi,
Nak'aydə yəs ğu ğarqudə,
Seyvana ğu ruğurğadə
Ulabı ulamık k'ak'adə
Ulabı ulamık k'ak'adə
Yi ğak' k'ak'ad balaqarvi
Yi ğak' k'ak'ad balaqarvi
Yəs ğu rıqad balaqarvi
Ğas yi yıqad şudaqavi
Ğudu ulaamırı, q'aşılmı'ra
S'abılk'aldı ulaamıra
Ğudu ulaamırı q'aşılmıra
Qardana adı xadılmıra
Yəs ğarqa raay balaqarvi
Yəs ğu rıqad balaqarvi
Ğu yəs rıqad balaqarvi

Rutulların maraqlı adətlərdən biri də adətən, qışda keçirilən "***qudiy-qudiy***" oyunudur. Bildiyimiz kimi, rutulların yaşadığı kəndlərdən biri olan və qış fəslinin sərt və uzun keçdiyi Şin kəndində qar çox yağır. Qar yağan vaxt bir qrup cavan və orta yaşlı sakinlər (kişilər) 10-15 nəfərlik qrupda birləşərək "çaqqal" bəzəyirlər. Bu 10-15 nəfərlik qrupun içərisində olan oğlanlardan birini dərilərlə bəzəyərək çaqqal düzəldirlər. Əlbəttə ki, çaqqal mifik bir obrazdır və onu insanların diqqətini

cəlb etmək üçün hazırlayırlar. Bu qrupla yanaşı, zurna-nağara çalanlar da mövcud olur. Bu zaman həmin qrup qapı-qapı gəzərək çalır-oynayır, hansı evə getsələr, həmin evin sahibi çaqqala müəyyən ərzaqlardan - kartof, lobya, düyü, qoz, fındıq və s. meyvə-tərəvəzlərdən pay verir.

Çaqqal hansı evə getsə, həmin evin həyətində oynayır və simvolik olaraq ölür. Çaqqal özünü qar çox olan yerə atır ki, yıxılanda əzilməsin. Evin sahibi pay verəndən sonra isə durub gedir. Çaqqal yoldan keçəndə uşaqları qorxudur, kimi əlinə keçirə bilsə, yerə yıxıdıb qar yedizdirir.

Bu oyun hamı-xüsusilə də, uşaqlar üçün çox maraqlı keçir. Çaqqalın qabağına böyük adamlar (kişilər) çıxsa, onunla güləşir.

Beləliklə, çaqqal üç gün kəndi dolaşardı. Kəndi dolaşıb qutarandan sonra həmin qrupun üzvləri toplanmış ərzaq mallarından yığıncaq təşkil edib, yeyib-içərdilər. Bu adət yalnız Şəkinin Şin kəndinə məxsusdur (http://anl.az/down/meqale/kaspi_az/2019/oktyabr/679694(meqale).pdf).

Rutullara aid olan ənənələrdən biri də avşuniy adlanan basdırmanın hazırlanmasıdır. Basdırmanın hazırlanması qaydası isə belədir:

Əvvəlcə kəsilmiş heyvanın bağırsaqları isti suda təmiz yuyulur. Daha sonra ət maşınından keçirilir, içinə isə sarımsaq, istiot, kəkotu və duz qatılır. Qatılmış ət, sarımsaq istiot, kəkotu və duz xəmir kimi yoğurulur. Yoğurulmuş ət bir gün saxlanılır ki, dad çıxsın. Sonra bağırsağın içini çölə çevirib bir ucunu bağlayırlar. Hazır əti içinə basa-basa doldururlar. Əti içinə basanda elə eləməlisən ki içərisində hava qalmasın. Sonra ağzı düyün kimi bağlanır. Bağırsağın iç tərəfinin çölə çevirməsinin səbəbi çöl hissəsinin daha yağlı (piyli) olmasıdır ki, bu piyli hissəni içəri tərəfə çevirirlər. Bu həm də basdırmanın daha yağlı və dadlı olmasına səbəb olur. Hazırlanmış basdırma (avşuniy) quruması üçün göydən (adətən payadan) asılır. Tam quruduqdan sonra yemək üçün istifadə olunur.

Rutul ağsaqqalları və ağbirçəklərinin istifadə etdiyi bayatılar :

1. Bu tala otlu tala
Başı buludlu tala
Aslanlar küsüb gedir
Qaldı bir quru tala.

2. Qızıl üzük məndə
Axtarma cibimdə
Dünya dolu yar olsa
Mənim gözüm səndə.

3.Dəyirmana daş gərək
Yara qələm, qaş gərək
Neylirəm qoca yarı
Mənə on beş yaşlı gərək.

4. Qızıl üzük məndə
Verdim anam saxladı
Anama qurban olum
Məni təzə adaxladı

5. Ağ kələğayı almışam
Sağ cibimə salmışam
Uzaqda olan yarı
Sağ -salamat görmüşəm.

6. Üzük-üzük deyirlər
Barmaq nazik deyirlər
Qoy barmağın böyüsün
Yarım nazik deyirlər.

7. Qayadan ana gördü.
Salam verdi məni gördü.
Sən ovçu, mən maral.
Çıxıb dağları gördü.

8. Dağa – daşa bax
Gülüb razı bax
Yar yadına düşəndə
Salavat dağına bax

9. Gedirəm daş bulağa
Suyu sərxoş bulağa
Kəndçiyəm yanıqlıyam
Deyərəm yaş bulağa

10. Yağıram yağış kimi
Qaçaram pamış kimi
Oğlana qız yaraşır
Xancana yapış kimi.

Lilaybır

Təknə bağa gül lirk'aş lilay lilay
Ğax'an yəzid gül sulkaş maral xanım
Ğu ğadişdi dünyə vıqaş lilay-lilay
Can dəydi riş, dəydi riş maral xanım

Vətən yada düşəndə lilay-lilay
Salavat dağına bax maral xanım .

Rutul şeirləri

Nəsdədilə sa yişiri xeyirbinə şərbi yanud.
Nəsdədilə sa yişiri xeyirbinə şərbi yanud.
Bala yişir, bay yişir hamı dərdbinə-sərbi yanud.
Maaş k'al hıır, kar yişir.
Kalışala bizar yişir, tuxabırna bərbi yanud.
Hamı madiş tuxabırna bərbi yanud.
K′ibixır dünya hamı.
K′ibıxır dünya hamı.
Hindi tuxdu, hindi q′aşdi, hindi sərxoş.
Hindi tuxdu, hindi q′aşdi, hindi sərxoş.
Saal dii aldiy dıx′ış, k′at′na r′u′k′ur karbı yanud.
K′at′na r′u′k′ur karbı yanud.
K′a′sa dişir, madiş qabıx heç yanuxda.
K′a′sa dişir, madiş qabıx heç yanuxda.
Macal vişiş heç yanuxda.
Macal vişiş heç yanuxda.
Ayğır vişiş heç yanuxda.
Ayğır vişiş heç yanuxda
Xarkal yıx′ır karbı yanud.
Ay b′ıçabı hamı hinə atarbı
Nəsdə duur ruk′unay qatarbı.
Hamı t′əx′də ru′k′ur tatar.
Hamı t′əx′də ru′k′ur tatar.
Suk′uk′uri karbı yanud.

.

Rutulların yaşadığı Borç kəndi haqqında şeir

Ağayçur maramə gümüdi xıla
Surdu ariy yıx′ır, surdu huriy
Maramə nəstədkal ağuy, kuğuy ğada
Ay hupx′udu m′u′k′ Bı′çad′ı
Mal-qara leykır sartanay hərsa yəylaxa
Davat vaay əmir lurzanay ğudu çeylaxa
H′uş ak′uğur ğudu quşey nənədi bulaxa
Ay hupx′udu m′u′k′ Bı′çad′ı
Yik′i avğur yəs ğudu k′ırışmay
Yic rux′ur, yixdi Bı′çad′ı vay
Tataras vır ğudu k′ab′ k′atay
Ay hupx′udu m′u′k′ Bı′çad′ı
Yik′i avğur ğudu k′uludadı
Baladı yişir k′aliy havıdı
Səkki yişiş ak′ıl adı
Ay hupx′udu m′u′k′ Bı′çad′ı
Sa-k′a′d′ bənd hux′us yıqar yəs ğada
Şad ru′k′u′r a′k′uğ′uy ğaqudə suvala
Maramə nəstək′al ağ′uy-k′uğ′uy ğada
Ay hupx′udu m′u′k′ Bı′çadı
Nənək′uşa rux′udi, ninə
Nəsdəd ğuğud hinə cehilər
Yic rux′ubur ütkür imə?
Ay hupx′udu m′u′k′ Bı′çadı
Rişbir ad xal haanay tavluda
Kəğəridi rişərə harsanay cirə-cis dalda
Rux′unay havasad karbır ğada
Ay hupx′udu m′u′k′ Bı′çadı
Yəylaxanala fağayç′ur atarbı
Ğ′un′a tüfəng, y′ı′k′a qatarbı
Hinə irdi ipakad dun laabı
Ay hupx′udu m′u′k′ Bı′çadı.

Can q′ari

Ğu yix′di namus vicdanri-vicdanri
Ğu yix′di dərdədi dərmanri-dərmanri
Ğu yix′di dərdədi duxturi-duxturi
Ğu yix′di dindid imanri-imanri
Şiv yıxa ğu yəs rişid can qari
Şiv yıxa ğu yəs rişid can qari
Bıç′k′aldı, bıç′k′aldı, bıç′k′aldı
Bıç′k′aldı, bıç′k′aldı, bıç′k′aldı can qari
Ğuc haadinay xaşid k′ink′al can qari
Ğuc haadinay xaşid k′ink′al can qari
Hamı halıra k′aasdə misəd k′ink′al ay qari
Hamı halıra k′aasdə misəd k′ink′al ay qari

Şiv yıxa ğu yəs rişid can qari
Şiv yıxa ğu yəs rişid can qari
Bıç′k′aldı, bıç′k′aldı, bıç′k′aldı
Bıç′k′aldı, bıç′k′aldı, bıç′k′aldı can qari
Şiv yıxa ğu yəs rişid can qari

Nəticə

Azərbaycan folkloru və etnoqrafiyası çox qiymətli və zəngindir. Ölkənin şimal-qərb regionunun folkloru və etnoqrafiyası çox rəngarəng və zəngindir. Bölgədə yaşayan azsaylı xalqların folkloru və etnoqrafiyası ümumazərbaycan folklorunun və etnoqrafiyasının tərkib hissəsi olmaqla onun zənginləşməsində mühüm rol oynayır. Qeyd olunan materiallar rutul etnoqrafiyasının və folklorunun araşdırılması baxımından maraqlı mənbədir. Azsaylı xalqların özünəməxsus folklor və etnoqrafiyası Azərbaycan folklorunun və etnoqrafiyasının tərkib hissəsini təşkil edərək onun zənginləşməsində rol oynayır. Rutul nəğmələri, atalar sözləri, etnoqrafik materiallar- ("Qudiy-qudiy" oyunu, rəqsləri) rutul xalqının tarixinin, mənəvi mədəniyyətinin araşdırılması baxımından maraqlı mənbədir. Həmçinin rutulların maraqlı toy adətləri: cilovdarın təyin olunması, bəzi rutul kəndlərində gəlinin birinci yox ikinci gün bəy evinə aparılması, bəyin keçmişdə güllə atması, toyun sabahısı günü məclis təşkil olunması rutul adət-ənənələrinin zəngin olmasını bir daha sübut edir. Toydan bir gün sonra təşkil olunan məclisdə xan, vəzir məclisinin təşkili maraqlı folklor nümunəsidir. Əsasən bəyin qohumlarının xan-vəzir tərəfindən öz hüzuruna çağırılması, əmrə tabe olmayanlar üçün müəyyən cəzanın tətbiq olunması, xanın papağının oğurlanması, papağı oğurlayan şəxsin xan təyin olunması maraqlı adətlərdəndir. Məqalədə qeyd olunmuş və yaşlı rutul nümayəndələrinin istifadə etdiyi atalar sözləri, şeirlər, bayatılar, nəğmələr önəmli nümunələrdəndir. Həmin bayatılar, atalar sözləri, şeirlər böyük məna kəsb etməklə tərbiyəvi xarakter daşıyır. Ölkəmizdə yaşayan müxtəlif etnik qrupların folklorunun toplanılması və təbliği onlar arasında səmimi münasibətlərin möhkəmlənməsində, xalqlararası mənəvi bağlılığın yaranmasında böyük rol oynayır. Ölkəmizdə yaşayan müxtəlif etnik qrupların etnoqrafiyası, etnoqrafiyasının öyrənilməsi , təbliği onlar arasında səmimi münasibətlərin möhkəmlənməsində, xalqlararası mənəvi bağlılığın yaranmasında böyük rol oynayır.

ƏDƏBİYYAT

Alekseev, M., Kazenin, K. I., & Suleymanov, M. (2006). *Dagestanskie narody Azerbaidzhana: politika, istoriya, kul'tura* [The Dagestani peoples of Azerbaijan: Politics, history, culture]. Moskva: Evropa. ISBN 5-9739-0070-3.

Borçinskiy, S. (2007, May 18). O problemakh shekinskikh rutultsev [On the problems of Sheki Rutuls]. *Çernovik*, (20).

Epigraficheskie pamyatniki Severnogo Kavkaza na arabskom, persidskom i turetskom yazykakh. Nadpisi X—XVII vv. Teksty, perevody, kommentariy, vstupitelnaya stat'ya i prilozheniya L. I. Lavrova. (1966). Moskva: Nauka. (T. 1), s. 141, 142, 206.

Gadzhiev, A.-R. G. (1996). *Proiskhozhdenie narodov Dagestana* [The origin of the peoples of Dagestan]. Elbrus. s. 245.

Ikhilov, M. M. (1960). Materialy po etnografii rutulov i tsakhur [Materials on the ethnography of the Rutuls and Tsakhurs]. *Kratkie soobshcheniya Instituta etnografii AN SSSR*, (33), 26–28.

Lavrov, L. I. (1955). Rutul'tsy [The Rutuls]. In *Narody Dagestana: Sbornik statey* (pp. 195). Moskva: Izdatel'stvo AN SSSR.

Lavrov, L. I. (1966). *Epigraficheskie pamyatniki Severnogo Kavkaza na arabskom, persidskom i turetskom yazykakh. Nadpisi X–XVII vv. Teksty, perevody, kommentariy*. Moskva: Nauka.

Lavrov, L. I. (1978). *Istoriko-etnograficheskie ocherki Kavkaza* [Historical and ethnographic essays on the Caucasus]. Leningrad: Nauka. s. 36.

Lavrov, L. I. (1982). *Etnografiya Kavkaza po polevym materialam 1924–1978 gg.* [Ethnography of the Caucasus based on field materials of 1924–1978]. Leningrad: Nauka. s. 146.

Olson, J. S. (1994). *An ethnohistorical dictionary of the Russian and Soviet Empires*. Westport, CT: Greenwood Publishing Group. p. 576. ISBN 0313274975.

Portal kul'tury narodov Severnogo Kavkaza – Rutul'tsy. (2015, May 3). Retrieved from https://www.kavkaz-uzel.ru/articles/175839/ [Archived April 30, 2017].

Ramazanov, K. K., & Shikhsaidov, A. R. (1964). *Ocherki istorii Yuzhnogo Dagestana* [Essays on the history of Southern Dagestan]. Makhachkala: Dagestanskiy filial AN SSSR. s. 103.

İnternet resursları

http://anl.az/down/meqale/kaspi_az/2019/oktyabr/679694(meqale).pdf

http://samurpress.net/story.php?sid=2262

https://az.wikipedia.org/wiki/Rutullar

https://multikultural.az/az/medeni-muxteliflik/595/rutullar-tarix-medeniyyet-din/

https://www.kaspi.az/az/rutullarin-folkloru